Nəsir İmanquliyev -100

# Milli jurnalistikamızın patriarxı

**Himalay Qasımov**
*ADPU –nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, professor*
**Nəcəf Nəcəfov**
*"Azərbaycan məktəbi" jurnalının baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, əməkdar müəllim*

*"Müasir Azərbaycan jurnalistikasının təşəkkülündə xüsusi yeri olan Nəsrulla İmanquliyev mətbuatımızın inkişafında əvəzsiz xidmət göstərmişdir. O, cəmiyyət həyatının ən müxtəlif sahələrini əks etdirən sanballı yazıları ilə mətbuat tariximizə layiqli töhfələr vermişdir. Onun jurnalistika sahəsində zəngin pedaqoji fəaliyyəti Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynamışdır".*

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamından*

XX əsr Azərbaycan milli mətbuatının görkəmli nümayəndəsi, alim, pedaqoq, ictimai xadim, redaktor-jurnalist, professor Nəsir İmanquliyevin mənalı ömür yolu, səmərəli elmi-pedaqoji fəaliyyəti, mətbuatımızın inkişafındakı xidmətləri qədirbilən xalqımız tərəfindən həmişə uca tutulmuşdur. O, bütün şüurlu həyatını Azərbaycan mətbuatının, mədəniyyətinin inkişafına, cəmiyyətin obyektiv informasiya tələbatının ödənilməsinə, peşəkar jurnalist kadrlarının hazırlanmasına həsr etmiş, jurnalistika elmimizdə silinməz izlər buraxmışdır.

Nəsir İmanquliyev 1911-ci il dekabrın 22-də neftçi ailəsində dünyaya göz açmışdır. Atasını çox erkən - on bir yaşında itimişdir. Ailənin ağırlığı onun üzərinə düşdüyündən 1925-1926-cı illərdə Bakının Sabunçu rayonunda peşə məktəbində çilingərlik sənətinə yiyələnmiş, 14-15 yaşında bir müddət fəhləlik etdikdən sonra Balaxanı-Sabunçu neft mədənlərində usta köməkçisi işləmiş, 1934-cü ildə Lassal adına Neft Texnikumuna daxil olmuşdur. Narahat qəlbində bir yaradıcılıq həvəsi olduğunu da elə o zaman duymuşdu. Bu həvəs istedadlı gənci təhsil ala-ala qələmini sınamağa sövq etmiş, "Kommunist", "Yeni yol", "Gənc işçi" qəzetlərində ilk məqalələri işıq üzü görmüşdür.

Bütün həyatını jurnalistikaya bağlayan Nəsir müəllim hələ 1932-ci ildə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin tapşırığı ilə "Kommunist" (indiki "Xalq qəzeti") qəzeti redaksiyasında işə qəbul olunmuş, cəbhə illərindəki fasilədən sonra yenə də jurnalistika sahəsinə qayıtmış, beləliklə də, sərasər 24 il "Kommunist"də şöbə müdiri, məsul katib, redaktor müavini vəzifələrində işləmişdir.

İkinci dünya müharibəsi illərində Nəsir müəllim qələmini silaha çevirərək birbaşa cəbhə qəzetində fəaliyyət göstərir - 1942-ci ilin yanvar ayından Krım cəbhəsində "Döyüşən Krım" qəzetinin məsul katibi, hərbi hissədə tərcüməçi və siyasi işlər üzrə müavin vəzifəsində çalışır. "Döyüşən Krım" qəzetində məsul katib olarkən həm də hərbi hissədə tərcüməçi və siyasi işlər üzrə müavin kimi xidmət edən Nəsir müəllim döyüşkən yazıları ilə əsgərlərin vətənpərvərlik ruhunun formalaşdırılmasına kömək edirdi. Bu yazıların çoxu indi də öz aktuallığını saxlamışdır. Ağır illərlə bağlı xatirələrində sonralar Nəsir müəllim yazırdı: "Kommunist" qəzetində İsrafil Nəzərov, Seyfəddin Abbasov, Ağababa Rzayev, İbrahim Novruzov, Rza Quliyev, Nüsrət Bağırov, Əli Vəliyev, Xasay Vəzirov kimi naşirlərlə birgə işləmişəm. Sonra Böyük Vətən müharibəsi bizi səslədi. Kerçdə mərkəzləşdik... O zaman cəbhə bölgəsində üç dildə çıxan "Döyüşən Krım" qəzetinin ətrafında cəmləşmişdik. Azərbaycan dilində çıxan qəzetin məsul katibi Cəfər Cəfərov idi. Rəsul Rza ilə mən həmin qəzetdə əməkdaşlıq edirdik. Sonra mən qəzetin məsul katibi oldum. O qəzetlərdən savayı, cəbhəyə yardım üçün yerlərdə tədbirlər keçirilirdi. Həmin tədbirlərin işıqlandırılması üçün "Kommunist"in nəzdində xüsusi bir bülleten buraxılırdı. Mən həmin bülletenin redaktoru idim. Həmin nümunələri bu gün də saxlayıram, çünki ömrün ən yaddaqalan anlarının şahid sənədləridir onlar..." İki il döyüşdükdən sonra onun arxa cəbhəyə - "Kommunist" qəzetinə yenidən göndərilməsinin səbəbi daha çox cəsarətli yazıları ilə tanınan, insanları qələbəyə ruhlandıran qələm sahibinə bəslənən inamla bağlı idi. 1943-cü ildə ordudan tərxis olunsa da, o qaynar illərdə yenə də cəbhə mövzusuna əl atır, "müsəlləh əsgər" vəzifəsini yerinə yetirirdi.

1942-1945-ci illər müharibəsi zamanı mətbuatın rolundan namizədlik dissertasiyası yazan, dərslikləri, dərs vəsaitləri, həmmüəllifi olduğu sanballı monoqrafiyaları, tərcümə ədəbiyyatının ən gözəl nümunələri sayılan kitabları ilə alim, pedaqoq, yazıçı və mütərcim kimi hörmət qazanan, Böyük Vətən müharibəsindəki, quruculuq illərindəki fədakar əməyinə görə dəfələrlə orden və medallarla təltif olunan Nəsir müəllim milli mətbuatımızın inkişafındakı xidmətlərinə görə sonralar iki dəfə "Qızıl qələm" mükafatına, "Əməkdar mədəniyyət işçisi", "Əməkdar jurnalist" fəxri adlarına layiq görülmüşdür. Bütün bunlar bir şəxsiyyət kimi onun zəngin həyatının, yaradıcılığının kiçik bir yazıda qeyd olunan məqamlarıdır.

Tükənməz enerji sahibi olan Nəsir müəllim qəzet işində xeyli təcrübə toplasa da, əsl peşəkar olmaq üçün təhsilini artırmağı zəruri hesab edir və işləyə-işləyə 1946-cı ildə Moskvada Mərkəzi Qəzet Kursunu, 1948-1955-ci illərdə Moskva Ali Partiya Məktəbini qiyabi yolla bitirir.

1946-cı ildə o zaman çox-çox qələm sahibinə nəsib olmayan Moskva Mərkəzi Qəzet Kursunu bitirəndə elə bir dövr idi ki, ölkədə bərpa işləri aparılır, indiki Bakı Dövlət Universiteti yenidən qurulur, filologiya fakültəsi nəzdində indi 60 yaşı tamam olan jurnalistika fakültəsi yaradılırdı. O zaman respublikamızda yaxşı tanınan böyük publisist və jurnalist Nəsir İmanquliyevin adı həm də universitetin ilk qurucularının cərgəsinə yazıldı.

Peşəkar jurnalistikadan mühazirələr oxuyan Nəsir İmanquliyevin ən böyük xidmətləri bir də ondan ibarət idi ki, o, uni-

versitet auditoriyalarına kimlərinsə yazdığı mühazirə mətnlərini oxumağa gəlməmişdi, özü tədris etdiyi “Jurnalistikanın əsaslarını, nəzəriyyəsini və təcrübəsini” qələmə almaqla yanaşı, redaksiya ilə auditoriya, universitetlə mətbuat arasında bir məktəbə çevrilmişdi. Onun tələbələri bu böyük qələm sahibindən təkcə jurnalistikanın nəzəriyyəsini və əsaslarını öyrənmirdilər, həm də onun rəhbərlik etdiyi qəzetlərin əməkdaşlarına çevrilməklə öz imzalarını tələbəlikdən təsdiq etmiş olurdular.

Lakin Nəsir müəllim bir fəaliyyət sahəsi çərçivəsində qapanıb qala bilmirdi. 1947-ci ildə Azərbaycan Dövlət Universitetində müəllimlik fəaliyyətinə də məhz bu amal və məramlarla başlamışdı. O, burada “Partiya və sovet mətbuatının nəzəriyyə və təcrübəsi” fənnindən mühazirələr oxuyur, elmi işini davam etdirir, 1965-ci ildə namizədlik dissertasiyası müdafiə edir.

Tezliklə Nəsir İmanquliyevin yüksək intellekti, təşəbbüskarlığı və təşkilatçılıq qabiliyyəti respublikanın o zamankı rəhbərliyinin də diqqətini cəlb edir və etimadı doğruitduğu üçün vəzifə pilləsi ilə irəliləyir.

Doğma universitetinin filologiya fakültəsini bitirən Nəsir müəllim ömrünün sonunadək Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində dərs demiş, jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müəllimi olmaqla, yüzlərcə gənc jurnalistə bu peşənin sirlərini öyrətmişdir. O, qayğıkeş müəllim, ustad kimi yetirmələrinin gələcəyin yaxşı qələm sahibləri kimi yetişməsi üçün əlindən gələni əsirgəməmişdir.

Təcrübəli jurnalist gənclərə deyirdi: “Sizlərdən həmişə mənə cavanlıq təravəti gəlir. Çalışın ki, imzanızın məsuliyyətini dərindən dərk edəsiniz. Heç olmazsa düşünəsiniz hardasa sizi bir nəfər oxuyur. Bax, o oxucu naminə yalan yazmayasınız, saxtalıq etməyəsiniz, insanları aldatmayasınız”. Axı, bu sözü deyənin özü təbiət etibarı ilə çox prinsipial, saf, sağlam düşüncəli təfəkkür sahibi idi. Onun elmi-jurnalistika fəaliyyəti gənc jurnalistlər üçün böyük örnək sayılırdı.

Nəsir müəllim böyük uzaqgörənliklə daima jurnalistikamızın gələcəyini düşünürdü. Onun yazdığı dərsliklər bu gün də aktuallığını qoruyur. Axı, o çox səriştəli, istedadlı, ustad pedaqoq olan Nəsir müəllimin qələmindən çıxmışdır. O, təvazökar bir insan idi. Təmənnasızlıq onun həyat meyarı idi. Ona tapşırılan bütün vəzifələrdə Nəsir İmanquliyev özünü doğruldurdu. Bakı Şəhər Partiya Komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri, Mərkəzi Komitədə həmin şöbənin müdir müavini, Radio Verilişləri Baş İdarəsinin rəisi, Azərbaycan Radio-Televiziya Verilişləri Komitəsi sədrinin birinci müavini vəzifələrində işləyən Nəsir müəllim 1958-ci ildə Azərbaycan dilində “Bakı” qəzetini (1963-cü ildə həm də “Baku”nu) yaradaraq, tam 30 il bu nəşrlərin dəyişməz redaktoru olmuşdur.

Mətbuatımızın tarixini yaxşı bilən Nəsir müəllim nəzərə alırdı ki, Azərbaycanın ilk maarifçiləri olan Mirzə Fətəli Axundov, Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Həsən bəy Zərdabi, Ömər Faiq Nemanzadə, Mirzə Cəlil kimi böyük mütəfəkkirlər təkcə pedaqoji fəaliyyətləri, bədii əsərləri ilə deyil, həm də mətbuatda gedən bədii-publisistik yazıları ilə Azərbaycan xalqının oyanışına öz töhfələrini vermişlər. İlk dərslik müəllifi, tanınmış qələm sahibi olan bu böyük fitri istedad sahibləri sinif otaqlarına, auditoriyalara sığmayan səslərini, iti qələmlərini sonralar mətbuata gətirməklə böyük bir nəslin ustadına, millətin görkəmli şəxsiyyətlərinə çevrilmişlər. Müdrik sələflər öz xələflərini hazırlamışdılar.

Sözün həqiqi mənasında ömrünü, yaradıcılığını böyük bir amala həsr edən Nəsir müəllim aydın həqiqətdir ki, mətbuata özünün milli vətənpərvərlik hisslərindən, ədəbi-mədəni dəyərlərə olan sevgisindən gəlmişdi. Tale onu “Gənc işçi”, “Yeni yol”, “Kommunist” kimi qəzetlərin redaksiyalarında püxtələşdirmişdi. Bu qəzetlərdə məsul vəzifələr tutan Nəsir müəllim publisistik və bədii yazıları ilə Həsən bəy Zərdabi ənənələrini dövrün müasir mətbuatına gətirmişdi

Nəsir müəllim təkcə jurnalist, ictimai xadim kimi deyil, həm də radio-televiziya və mədəniyyət qurucusu kimi də milli-mənəvi dəyərlərimizin inkişafına öz töhfələrini vermişdir. Onun Mədəniyyət Nazirliyinin Radio-İnformasiya Baş İdarəsinin rəisi, nazirliyin kollegiya üzvü, Azərbaycan Radio və Televiziya Komitəsində sədr müavini olduğu illərdə bu nazirliklərin struktur inkişafında, eləcə də tarixlə müasirlik arasında əldə olunan yeniliklərdə xüsusi xidməti var idi. Hazırlanan layihələr, keçirilən görüşlər, efirə təqdim olunan verilişlər məhz bu böyük qələm sahibinin, ictimai xadimin, milli vətənpərvər ziyalının ideyalarından pərvəriş tapırdı.

Qeyd etmək lazımdır ki, sonralar Azərbaycan ədəbiyyatının tanınmış simaları olan bir sıra yazıçılar, şairlər, alimlər ilk yaradıcılıq addımlarını Nəsir müəllimin başçılıq etdiyi “Bakı” qəzetində atmışlar. “Bakı” həm də bütöv bir ədəbi nəslin yeni əsərlərinin işıq üzü gördüyü mətbuat orqanı olmuşdur.

Xalq yazıçısı Elçin yazır: “Görkəmli jurnalist Nəsir İmanquliyev bizim, yəni altmışıncı illərdə ədəbiyyata gəlmiş ədəbi nəslin dostu və xeyirxahı idi. Onun bizə bu münasibəti baş redaktoru olduğu “Bakı” qəzetində həmişə özünü göstərirdi. Mənim ilk yazılarımın bir çoxu o qəzetdə dərc edilmişdi. Haqqımdakı ilk məqaləni də o qəzet çap etmişdi və bizim Nəsir müəllimə xüsusi hörmətimiz var idi”.

Nəsir İmanquliyev Azərbaycan ədəbiyyatının vəziyyəti ilə ardıcıl maraqlanır, ədəbi mühitdə qaldırılmış mühüm məsələlərin müzakirəsində onun rəhbərlik etdiyi “Bakı” qəzeti fəal iştirak edir və həmişə də düzgün mövqe nümayiş etdirirdi. Azərbaycan poeziyası, nəsri, dramaturgiyası və ədəbiyyatşünaslığının ötən əsrin ikinci yarısında yaşayıb-yaratmış simalarının hamısı “Bakı” qəzetini belə dəyərləndirmişlər, xalq yazıçısı Qılman İlkinin sözləri ilə desək, çünki “Nəsir İmanquliyev Azərbaycan ədəbiyyatının dostu idi ”.

Nəsir müəllimin müdrikliyi, nəcibliyi, xeyirxahlığı və milli mətbuatımızda bir sıra yeni ənənələrin təməlini qoyan novator redaktor olması müasirləri tərəfindən layiqincə dəyərləndirilir.

Mətbuatımızın inkişafındakı əvəzsiz xidmətləri nəzərə alınaraq qətiyyətlə demək olar ki, üç on illik ərzində sükanı arxasında vüqarla dayanaraq daim irəli apardığı, inkişaf etdirdiyi, uğurlarından sonsuz iftixar hissi duyduğu “Bakı” qəzeti Azərbaycan mətbuatının tarixində milli bir hadisə olmuş, onun işıq üzü görməsi ilə o dövrün ciddi siyasi buxovları çərçivəsində sıxılan milli mətbuatımıza yeni nəfəs, yeni ruh, yeni dəst-xətt gəlmişdir.

Danılmaz həqiqətdir ki, ötən əsrin 50-60-cı illərində hər bir fikir, təşəbbüs heç də asanlıqla qəbul olunmur, asanlıqla həyata keçirilmirdi. Bu baxımdan Azərbaycan mətbuatının liderlərindən biri olan Nəsir İmanquliyev “Bakı” axşam qəzetini yaratmaq üçün də nə qədər əsaslandırıcı dəlillərə əl atmalı olmuşdu. Üstəlik də, qəzetin nəşrinə Moskva da razılıq verməli idi.

“Bakı” və “Baku” axşam qəzetlərinin baş redaktoru kimi şərəfli və məsul bir işdə Nəsir müəllim bu mətbu orqana gətirdiyi yeniliklərlə Azərbaycanda azad sözə, azad fikrə daha çox yer ayırıb öz oxucularını

daim yeni informasiyalarla təmin edirdi. O, sözün həqiqi mənasında belə yeniliklərin tərəfdarı olmuşdur. Onun zəhməti sayəsində ərsəyə gələn bu qəzetin səhifələrində paytaxtımızın gözəlliyi, yenilikləri ilə yanaşı, həlli müşkülə çevrilən məsələlər də geniş və operativ şəkildə öz əksini tapmışdı. Nəsir müəllim mətbuatımızın digər ustad, klassik korifeyləri kimi, xalqı üçün mənəviyyat gülüstanı yaradırdı. O, vaxtın, zamanın qədrini bilən ictimai xadim idi. Onun redaktorluq fəaliyyəti də bunların bariz təsdiqidir.

Mətbuatımızın tarixində 30 il fasiləsiz redaktor işləmək, hər həftə iki dildə bir-birini təkrarlamayan 12 nömrə qəzet buraxmaq, müxtəlif millətlərə, müxtəlif zövqlərə, fərqli düşüncələrə mənsub böyük bir kollektivi söz-söhbətsiz, dəqiq saat mexanizmi kimi idarə etmək də hamıya nəsib olan hünər deyildir. Təkcə bu faktın özü Nəsir müəllimin ağsaqqallığı, idarəçilik üslubu, redaktorluq məharəti, ustalığı və ustadlığı haqqında çox söz deyir.

Düzgünlük, ədalətlilik, işgüzarlıq, insanpərvərlik, alicənablıq Nəsir İmanquliyev məktəbinin həyat və əməl devzi idi.

"Bakı" qəzeti təkcə öz tələbələrinin laboratoriyasına, şəhər əhalisinin informasiya mənbəyinə deyil, sənət-söz adamlarının, xüsusən də gənc yazarların, tədqiqatçı alimlərin hünər meydanına çevrilirdi. Bununla da milli mətbuat tariximizdə Həsən bəy Zərdabinin "Əkinçi"sindən başlayan, Mirzə Cəlilin "Molla Nəsrəddin" ədəbi məktəbində püxtələşən, həmçinin 1920-ci ildən sonra yaranmış maarifçilik ideologiyası ilə zənginləşən ənənələr Nəsir müəllimin "Bakı" qəzetində yenidən yaddaşlara qaytarılmış oldu. Nəsir müəllim bu nəşrlərlə milli mətbuat tariximizə peşəkar jurnalistikanı, dəqiq, qərəzsiz informasiyanı, maarifçilik ruhunu, milli-mənəvi dəyərlərə hörmət hissini gətirmiş oldu. Jurnalistikanın elmi-nəzəri problemlərini işləyən bu böyük alim həm də onu ciddi elm sahəsi səviyyəsinə qaldırmaqla bu gün çox dəbdə olan "Jurnalistika dördüncü hakimiyyətdir" ideologiyasını formalaşdırmış oldu. Hakim rejimin ciddi monopoliyasının hökm sürdüyü, liberal qanunvericilik bazasının olmadığı, söz-mətbuat azadlığının təmin edilmədiyi bir məqamda "Bakı"nı, sözün həqiqi mənasında, "Əkinçi"nin, "Molla Nəsrəddin"in varisinə çevirmək böyük cəsarət və peşəkarlıq tələb edirdi. Tale bu böyük xoşbəxtliyi Nəsir müəllimə nəsib etmişdi. O, böyük jurnalist, müəllim, ictimai xadim olmaqla yanaşı əsl mənada şəxsiyyət idi. "Dildə, fikirdə, işdə birlik" nidasına tapınan İsmayıl bəy Qaspıralı "Tərcüman" qəzetini millətin istiqlal və yaddaş tərcümanına, istedadlı qələm sahiblərinin nur yerinə çevirdiyi kimi Nəsir müəllim də öz "Bakı"sını, eləcə də "Baku"sunu Bakının, ümumiyyətlə, bütün Azərbaycanın aynasına yaddaş saxlancı etmişdi.

Taleyini jurnalistikaya həsr edən adamlar üçün qarşıya qoyulan son məqsədə çatmaq baxımından Nəsir İmanquliyev, sözün həqiqi mənasında, örnək sayıla biləsi insan olmuşdur. İki qəzetin redaktoru olmasına, iş qrafikinin gərginliyinə baxmayaraq, o, jurnalistika fakültəsində dərs deməyə də vaxt tapırdı. Sovetlər dövrünün sərt və dəmir qadağaları altında dərc olunmasına baxmayaraq, bu qəzetlər tələbə-jurnalistlərin təcrübə qazanması, püxtələşməsi üçün bir meydan idi. "Bakı" və "Baku" şəhər qəzetləri olsa da, onun səhifələrində çeşidli materiallar Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatını əks etdirən müxtəlif səpkili yazılar, xalqımızın milli-mənəvi dəyərlərinə dair daha çox məlumatlar işıq üzü görürdü. Nəsir müəllimin tələbələri olan, sonralar isə "Bakı" qəzetində işləyənlər, müxtəlif vaxtlarda Nəsir müəllimin təcrübəsindən çıxmış jurnalistlər söhbət düşəndə indinin özündə də xatırlayırlar ki, o, cavanların əlindən tutan, əməkdaşların ev, məişət problemlərinin həlli üçün bacardığı köməkliyi göstərən qayğıkeş bir rəhbər olmuşdur. Nəsir müəllim gənc jurnalistlərin bu kimi problemlərinin müsbət həlli üçün əlindən gələni əsirgəməzdi.

Bu gün Nəsir müəllimin neçə-neçə tələbəsi müxtəlif mətbuat orqanlarında çalışır. Onlar çağdaş Azərbaycan mətbuatında keçmişdən gələn bir çox üstün keyfiyyətlərin hələ də itib-batmamasına, başqa unudulmaz müəllimlərimiz kimi, Nəsir İmanquliyevin öz tələbələrinə aşıladığı o təcrübənin də davam etməsinə çalışırlar.

Bütün ömrü boyu saysız-hesabsız adama hayan olmuş, çoxunun müşkülünü yoluna qoymuş, dar günündə əlindən tutmuş Nəsir müəllim 1998-ci il martın 6-da haqq dünyasına qovuşdu. Lakin tale ona qəlblərdə xoş xatirələrlə əbədi yaşamaq şərəfini də qismət etmişdir.

Bir neçə onilliyə bərabər zaman kəsiyinin bu tayından boylananda aydın görünür ki, milli jurnalistikamızın tanınmış simalarından biri kimi, XX əsr Azərbaycan mətbuatının inkişafında sözünü demiş, böyük bir məktəbin əsasını qoymuş Nəsir İmanquliyevin 70 ilə yaxın müddətdə özünün zəngin publisistik və elmi-pedaqoji fəaliyyəti ilə böyük şöhrət qazanaraq ictimai fikir tariximizə bəxş etdiyi təkrarsız nəzəri-təcrübi yazılar bu gün də elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır, dərin oxucu rəğbətindən kənarda qalmır. Nəsir İmanquliyevin mehriban və xeyirxah, eyni zamanda ciddi çöhrəsi neçə-neçə peşəkar jurnalisti həyata ruhlandırmış, ona əsl yaradıcılıq vəsiqəsi vermişdir.

Nəsir müəllim dərsdə də, təcrübədə də yalnız quru nəzəriyyəni öyrətmirdi. O, gənclərlə işləyəndə pillə-pillə peşəkarlıq zirvəsinə çatmaq yolunda topladığı təcrübəyə əsaslanırdı. O, özünün bu elm və mənəviyyat sərvətini tələbələri ilə səxavətlə bölüşürdü. Universitet auditoriyasında bacarıqlı pedaqoq kimi tanınan bu nəzəriyyəçi şəxsiyyəti tələbələr bir neçə saatdan sonra "Bakı" və "Baku" axşam qəzetlərinin redaksiyasında praktik müəllim kimi görürdülər. O həmişə deyərdi: "Jurnalistika elə nadir ixtisaslardan biridir ki, orada peşəkarlığın, mükəmməlliyin son həddi yoxdur. Jurnalistikanın birinci meyarı həqiqətdir".

Redaksiyadakılar hər gün onun kəsərli sözünün, sərrast redaktəsinin, redaktor məsuliyyətinin, işçiləri ilə yüksək ünsiyyət mədəniyyətinin canlı şahidi olurdular. O, həmişə əməkdaşların qələmini, yaradıcılığını qiymətləndirir, şəxsiyyətlərinə hörmətlə yanaşırdı. "Peşəkarlıq həm məzmuna, həm də formaya yiyələnməkdir", - deyən Nəsir İmanquliyev bu sözlərinin əsl mənasını işdə və yaradıcılıqda öz nümunəsi ilə sübut edirdi.

Ümumiyyətlə, Nəsir müəllim yaddaşlarda xeyirxah, qayğıkeş, sadə, haqqa tapınan bir insan kimi qalıb. O, tələbələri ilə həmişə səmimi söhbətləşər, onlara dəyərli məsləhət verər, onları artıq öz həmkarı hesab edərək yaradıcılıq müzakirələri aparar, bununla yanaşı, bir müəllim kimi ciddi və tələbkar münasibətini də əldən verməzdi.

Sanki yaranışdan ona bir istedad, biliklərə yiyələnmək həvəsi verilmişdi. Lakin onun jurnalist kimi formalaşmasında, peşəkarlıq zirvəsinə çatmasında rol oynayan təkcə biliyi və istedadı deyildi. O, ömür yollarının enişində-yoxuşunda bərkimiş, yetkinləşmiş və nəhayət, zəngin həyat təcrübəsi toplamışdı. Bütün bunlar onun müşahidələrini dolğunlaşdırmış, dünyagörüşünü genişləndirmiş, qələmini ci-

lalanmış, ömrünü daha mənalı etmişdi. Nəsir müəllimin ömür yolunun bütün mərhələləri keşməkeşli və çətin, lakin şərəfli olmuşdur.

Məsul vəzifələr daşıması Nəsir İmanquliyevin jurnalist peşəsinə məhəbbətini heç vaxt azaltmayıb. Əksinə, bu amillər onun qələminin əhatə dairəsini getdikcə genişləndirirdi. "Jurnalist ustalığının zirvəsi yoxdur və ola da bilməz. Əgər biri özü barəsində "mən əla yazıram" deyirsə, yaxud bu cür fikirləşirsə, belə jurnalistin, xüsusən də qəzet işçisinin fəaliyyətində heç bir irəliləyiş gözləməyə dəyməz" - deyən Nəsir müəllimin özü daim axtarışda idi. Peşəkar jurnalist baş redaktorluqla kifayətlənməyib, eyni zamanda "Sovet kəndi", "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Bakinski raboçi", "Azərbaycan müəllimi" qəzetlərində, "Azərbaycan kommunisti", "Azərbaycan qadını" jurnallarında da maraqlı mövzularla mütəmadi çıxış edirdi.

O dövrdə qəzetdə tənqidi yazılar dərc etməyin çətin və riskli olduğunu çoxları indi də yaxşı xatırlayır. Nəsir İmanquliyev təzyiqləri dəf edərək tənqidi məqalələrində və felyetonlarında cəmiyyətdəki nöqsanları göstərir, xalqa xor baxan bürokrat vəzifə sahiblərinin iç üzünü açırdı. Nəsir müəllim deyirdi: "Elə yazı yazın ki, səs salıb mis kimi cingildəsin". Onunla birgə işləyən jurnalistlər də bu yolla gedirdilər. Onları qoruyan isə müəlliflərin, nəticə etibarı ilə qəzetin faktlara peşəkarlıqla əsaslanması, obyektivliyi idi.

O da həqiqətdir ki, N.İmanquliyevin redaktorluğu ilə çıxan qəzet sanki jurnalist sənəti baxımından zamanı qabaqlayırdı. "Bakı" və "Baku" qəzetlərində iri materiallarla yanaşı, çoxsaylı xırda, lakin maraqlı və məzmunlu xəbərlər də dərc olunurdu. İndi bütün dünyada mətbuatın ən çox istifadə etdiyi və oxucuların sevdiyi xəbər janrına Nəsir müəllim hələ yarım əsr bundan əvvəl üstünlük verirdi. O, eyni zamanda ayrı-ayrı kollektivlərdə redaksiya heyətinin görüşlərini keçirir, qəzetlə bağlı oxucuların rəy və təkliflərini öyrənir, onları yaradıcılıq prosesində nəzərə alırdı. Nəsir müəllim üçün ən qiymətli meyar oxucu rəyi və bu fonda mətbuatın təsir gücü idi.

Mətbuat tariximizdə şərəfli iz qoyan, milli mətbuatımıza "Bakı" qəzeti kimi əvəzolunmaz mətbu orqanı təqdim edən, Azərbaycan jurnalistikasında böyük pedaqoq kimi məşhurlaşan, alim adına layiq istedadlı yetirmələri ilə tükənməz hörmət sahibi kimi tanınan, həyat yollarını özünəməxsus mətin addımlarla keçən Nəsir İmanquliyev eyni zamanda xaraktercə bütöv, kamil, son dərəcə alicənab və müdrik şəxsiyyət kimi tanınmışdır. Təsadüfi deyildir ki, onun "Bakı" qəzetindəki fəaliyyəti müasirlərinin yaddaşlarda dərin izlər buraxmışdır. Tariximiz və taleyimiz üçün mühüm məna kəsb edən bir zaman kəsiyində öz dəsti-xətti ilə mətbuatımıza yeni nəfəs gətirən "Bakı" qəzeti gənclər üçün bir ata ocağı idi. "Bakı" qəzetində çıxış etmək hər bir yaradıcı insana qürur hissi gətirirdi. Burada baş redaktorun müstəsna rolu aydın hiss olunurdu. Nəsir İmanquliyev bir alim kimi yaradıcılıq axtarışları və həmçinin ictimai-tarixi fəaliyyəti, qloballaşma şəraitində sivil və demokratik cəmiyyət quruculuğunda yeni vətəndaş axtarışımızla səsləşdiyinə görədir ki, onun tarixi fəaliyyəti və təcrübəsi mühüm elmi-ictimai maraq doğurur.

Nəsir İmanquliyevin publisistikasının öyrənilməsini aktuallaşdıran bir tərəfdən onun ictimai-siyasi ideyalarıdırsa, digər tərəfdən jurnalist sənətkarlığı, bədii-estetik axtarışları, üslub özünəməxsusluğudur. "Bakı" kimi mətbuat orqanına redaktorluq etməklə müxtəlif mövzu və janrlı əsərləri və zəngin publisistik yaradıcılığı ilə





Nəsir İmanquliyev
(1911-1998)

azərbaycançılıq ideologiyasını da formalaşdırmağa çalışırdı. Müstəqil düşüncə uğrunda mübarizə aparan bu böyük publisistin irsinin müasirlik meyarları ilə araşdırılması çağdaş ictimai-siyasi təkamül prinsiplərimizi müəyyənləşdirmək, milli-mənəvi dəyərlərimizi qorumaq baxımından da mühüm əhəmiyyət kəsb edir. Nəsir İmanquliyev yaradıcılığının ümummilli ədəbi-mədəni inkişafa mühüm təsirindən bəhs edərkən onun bir ustad jurnalist kimi zəngin təcrübəsi, publisistikasının ideya-estetik prinsipləri məxsusi səciyyələndirilməli, redaktorluq fəaliyyəti publisistik axtarışları kontekstində dəyərləndirilməli, Azərbaycanda milli mətbuat mühitinin formalaşdırılmasında böyük rolu olan "Bakı" qəzetinin ictimai fikrin tənzimlənməsindəki müstəsna rolu da nəzərə alınmalıdır.

Nəsir İmanquliyev Azərbaycan mətbuat mühitinə taleyönlü bir çağda daxil olmuşdu. Onun intellektual hazırlığı, siyasi-fəlsəfi baxışları Azərbaycanda ictimai-mədəni fikrin, milli jurnalistika və publisistika axtarışlarının yeni inkişaf istiqamətini müəyyənləşdirməyə təsir göstərmişdir. Təsadüfi deyildir ki, ədəbi-tarixi rolu sovet hakimiyyətinin süqutu ərəfəsində və müstəqillik əldə edilməsindən sonra obyektivlik mövqedə daha geniş işıqlandırılmağa, haqqında ciddi elmi-nəzəri tədqiqat əsərləri yazılmağa başlandı. Belə ki, Azərbaycanda mətbuat mühitinin formalaşması təsvir edilərkən Nəsir İmanquliyevin adı xüsusi diqqət mərkəzinə çəkildi. Çünki onun ictimai fəaliyyəti və publisistik axtarışları birbaşa mədəni, mənəvi birlik ideyasına köklənmişdi, Azərbaycan jurnalistika mühiti məhz bu kontekstdə imkanlarını genişləndirir, yeni və çoxsahəli axtarış meyillərini formalaşdırırdı. Bu baxımdan "Bakı" qəzetinin həm də klassik Azərbaycan jurnalistikasının özünəməxsus xüsusiyyətlərini əks etdirən ensiklopedik tutumlu, ictimai-siyasi məqsədlər sərgiləyən bir mətbuat nümunəsi kimi dəyərləndirilməsi də təbiidir. Qəzetin redaktoru mahir jurnalist olmaqla yanaşı həm də ictimai xadim, politoloq, pedaqoq, filosof idi. Nəsir İmanquliyev eyni zamanda iki qəzeti idarə edirdi. "Bakı", "Baku" qəzetlərini yaşlı nəsil yaxşı xatırlayır. Bu axşam qəzetlərini oxumayan tapılmazdı. Bu qəzetlər bütün evlərin səbrsizliklə gözlənilən əziz mehmanı idi. Qəzet onlar üçün həm müsahib, həm yol yoldaşı idi. Nəsir müəllimi şəhərdə tanımayan yox idi. Yolu Üzeyir Hacıbəyov küçəsindən düşən məqamlarda gənclər onu Azərbaycan Pedaqoji İnstitutunun qarşısında fərəh və sevinclə qarşılayır, saxlamağa çalışır, böyük söz ustadının müdrik kəlamlarından, dəyərli tövsiyələrindən bəhrələnib, qürurlanmaq istəyirdilər. Nurlu siması, vüqarlı qaməti, şəxsiyyətinin əzəməti onu gənclərə daha da sevdirirdi. Aydın görünürdü ki, rüzügarın, mühitin rəngindən və ahəngindən asılı olmayaraq bu yenilməz insan o mürəkkəb zamanda da vaxtdan ucalığını qoruyub saxlaya bilirdi.

Bir daha xatırlatmağa dəyər ki, "Bakı" qəzetinin nəşri milli mətbuat mühitində yeni istiqamətin əsasını qoydu. Bu mətbuat orqanı ictimai-mədəni həyatda, habelə sosial-siyasi şüurda keyfiyyət yeniliyi yaratmaqda müstəsna xidmət göstərdi, islahatçılıq-reformizm hərəkatına rəvac verdi. Azərbaycan milli mətbuatının ideya istiqamətini məhz bu məcraya yönəltməyə çalışdı. Bu yönüm fəaliyyətdə olan digər jurnalistlər və mətbuat orqanları üçün də yararlı bir örnək oldu. "Bakı" qəzetinin nəşri milli düşüncədə bir sıra yeniliklərin gündəmə gəlməsinə səbəb oldu. Belə ki, bu mətbuat orqanı Azərbaycan ziyalılarının, maarifpərvərlərinin aktiv fəaliyyətinə meydan açdı, ölkədə dünyəvi dəyərlərin

yayılmasına təsir göstərdi. Jurnalistlər bir daha yəqin edirdilər ki, publisistika yalnız məlumatla, fikri ictimailəşdirməklə məhdudlaşmır. İctimai təsir gücünü artırmaq məqsədilə fəlsəfi-analitik düşüncə ilə yanaşı operativlik, informasiyalılıq, dəqiqlik, elmilik, müasirlik, bədiilik kimi tələblər də vacibdir. Nəsir müəllim dönə-dönə tövsiyə edirdi ki, hər bir qələm əhli öz yaradıcılığında ümummilli, ictimai və sosial - psixoloji ziddiyyətlərə aydınlıq gətirməlidir, fakt və hadisələrə yanaşmasında dəqiqlik, obyektivlik, qərəzsizlik prinsiplərinə əsaslanmalıdır. Nəsir İmanquliyevin publisistikasında insanın fərdi həyatı və daxili yaşantıları ilə yanaşı onun sosial mahiyyəti, ictimai - siyasi statusu və ümumilli arzuları vəhdətdə götürülürdü. Bu baxımdan onun əsərlərində ictimai ideyaların, vətənpərvərlik ovqatının, haqq və ədalət duyğularının, istiqlalçılıq meyillərinin qabarıq ifadəsi başa düşülən idi. Nəsir müəllimin publisistikasında forma və məzmun əlaqələri də vəhdət təşkil edirdi, təsvir və təhlil olunan məzmun özünə- məxsus şəkildə meydana çıxırdı. Bu publisistika yalnız məzmun və ideya yeniliyi ilə deyil, həm də janr baxımından mühüm maraq doğurur və orijinal sənətkarlıq keyfiyyətlərini əks etdirirdi. Bunu deyərkən əsərlərin informativ, sosial-siyasi, fəlsəfi-analitik, bədii-publisistik, icmal və məktub janrında yazıldığı da nəzərdə tutulur.

Söz yox ki, "Bakı" və "Baku" məhz Nəsir müəllimin obyektivliyi, ötkəmliyi, ensiklopedik bilik və bacarığı sayəsində böyük nüfuz qazanmışdır. O, publisistikada aramsız yaradıcılıq axtarışları ilə özünün məktəbini – "Nəsir İmanquliyev məktəbi"ni yaratdı. Azərbaycan milli mətbuatı tarixində belə xoşbəxtlik az-az redaktoralara nəsib olmuşdur. Milli mətbuatımızın tarixində yeganə qəzetlərdir ki, onlara redaktor kənardan təyin olunmadı, bu missiya məhz ustadın öz yetirmələrinə tapşırıldı.

Bir faktı da qeyd etməmək olmaz. Azərbaycan mətbuatı tarixində parlaq iz qoyan, yeni ruhlu, o dövrün digər nəşrlərindən əsaslı şəkildə fərqlənən "Bakı" axşam qəzeti heç zaman rəsmiyyətçiliyə meyil etməzdi, daha çox xəbər, reportaj, müsahibə janrlarına üstünlük verər, paytaxtın həyatını, əhalinin qayğılarını rəngarəng formalarla işıqlandırardı. Bu qəzetin yaranışından oxucuların böyük məhəbbətini qazanması həm də o mənada təsadüfi deyildi ki, onun sükanı arxasında zəngin təcrübəli, yüksək zövqlü, iradəli və cəsarətli mütəfəkkir bir jurnalist dururdu.

"Bakı" qəzetinin uğurları Nəsir İmanquliyev fenomeni, onun nadir şəxsiyyəti ilə birbaşa bağlı idi. Siyasətdən uzaq olan axşam qəzeti milli oyanış çağının bəhrəsi olaraq özümüzə qayıdışa münbit zəmin yaratmağa hesablanmışdı. Emosiyalardan təhlilə, özünüdərkə keçmək zamanının yetişdiyindən soraq verirdi. Rəsmi ideologiyanın yedəyinə alınan, beşillik planların yerinə yetirilməsi çağırışlarını manşetə çıxaran qəzetlərdən fərqli olaraq şəhərin sakinləri üçün önəm kəsb edən hadisələri müstəviyə çıxaran "Bakı", əlbəttə ki, redaktorunun yuksək mənəvi intellektindən güc alırdı.

Nəsir İmanquliyev Azərbaycan mətbuatı tarixində yeni bir eranın əsasını qoydu. Dövrünün böyük jurnalisti olan Nəsir müəllim dünya mətbuatı təcrübəsinə əsaslanaraq sovet dövrü mətbuatının buxovlarını qıra bildi. Azərbaycan mətbuatı tarixində ilk dəfə olaraq məhz Nəsir İmanquliyev jurnalistikaya dair elmi-nəzəri fikri inkişaf etdirdi, qəzet jurnalistikasının elmi əsasını işləyib hazırladı və bununla da jurnalistikanın hüdudlarını xeyli genişləndirmiş oldu.

XX yüzillikdə qəzetimizin və milli mətbuatımızın təəssübkeş yaradıcısı kimi o, vətəndaşlığını ortaya qoydu, oxucu zövqünün və idrakının boy göstərməsinə zəmin yaradan "Bakı" axşam qəzetini ərsəyə gətirdi. Bu kimi taleyönlü məqamlarda ön sırada addımlayan Nəsir müəllimin həmişə parlaq, xoş və gülümsər çöhrəsinin yaddaşlarda əbədi həkk olması təbiidir. Nəsihətlərini xatırlayanda bu gözəl insanın cismani diriliyi göz önündə canlanır. Həqiqətən də, insan öz əməlləri, öz nəcibliyi, öz xeyirxahlığı ilə yaddaşlarda qalır. Bu mənada Nəsir müəllim bu gün də sıralarımızın önündədir, tanıyanların qəlbindədir. Bu istək xeyirxah əməlləri ilə xalqımızı qürurlandıran, doğma xalqına nur paylayan böyük ziyalı Nəsir İmanquliyevin halal mənəvi haqqıdır.

Onu oxucularına sevdirən başlıca xüsusiyyətlərdən biri də mövzularının əhatəli və xalqın ruhuna yaxın olması idi. Haqlı olaraq milli mətbuatımızın patriarxı sayılan Nəsir İmanquliyevin toxunduğu mövzular, irəli sürdüyü ideyalar həmişə xalqın amalını əks etdirir, ideoloji buxovlar və sərt senzura şəraitində ona populyarlıq qazandırırdı. Mətbuat tariximizdə silinməz iz qoymuş bir çox dühalar kimi, Nəsir müəllimin də peşəkarlıqla qələmə aldığı bir çox həyat həqiqətləri heç zaman aktuallığını itirməyəcəkdir.

Jurnalistika sahəsində öz məktəbini yaradan Nəsir müəllimin ən böyük əsərləri onun yetirmələri, baş yazarı olduğu "Bakı" və "Baku" qəzetləri olsa da, onun şah əsəri ərəb-məhcər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçısı, Azərbaycanı və türk dünyasını ideya və məfkurə birliyinə çağıran, Şərqi və Qərbi birlik, qardaşlıq fəlsəfəsinə səsləyən AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, ərəb filologiyası üzrə məşhur tədqiqatçı alim, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva idi. Nəsir müəllim heç bir mətbu orqana ruhundan qida verməsəydi, bir qələm sahibini püxtələşdirib pərvaza gətirməsəydi belə, Azərbaycan xalqının yaddaşına böyük ziyalı, vətənpərvər insan, dahi şəxsiyyət kimi yazılacaqdı. Çünki o, bu gün dünya şərqşünaslarının adını hörmətlə çəkdiyi Aida xanıma ruhundan qida vermişdi.

Təbiidir ki, Nəsir müəllimin bu mühitdə böyüyən övladı Aida xanım İmanquliyeva da elmin dərinliklərinə varıb görkəmli şərqşünas-alim olmuşdu. Bu gün Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın xeyirxah, nəcib əməlləri, professor Nərgiz xanım Paşayevanın bir alim və pedaqoq kimi nailiyyətləri də ona əbədiyaşarlıq bəxş edir.

Nəsir müəllim güclü zəkası, möhkəm iradəsi, həssaslığı ilə seçilən ziyalılardan idi. Həmkarlarının ondan öyrəndiyi təkcə elm və sənət deyildi. O, həmçinin onlara insanları sevməyi, səmimi olmağı, ehtiyacı olanlara kömək əli uzatmağı, vicdanı təmiz, gözü-könlü tox olmağı, etik normalara riayət etməyi və neçə-neçə digər müsbət keyfiyyətləri aşılayırdı. Həm də bunları dildə, sözdə deyil, şəxsi nümunəsində nümayiş etdirirdi. Nəsir müəllimin aydın və nurlu bir sima, gözəl alim kimi insanlara bəxş etdiyi işıq mənəvi paklığından, intellektinin möhkəmliyindən, şəxsiyyətinin ucalığından, bütövlüyündən qidalanırdı. Layiq görüldüyü fəxri adlarında isə Azərbaycan mətbuatının inkişafındakı əvəzsiz xidmətləri öz təsdiqini tapmışdı. Ölkə Prezidenti cənab İlham Əliyevin "N.Ə.İmanquliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" 4 sentyabr 2006-cı il tarixli sərəncamı onun vətən və xalq

qarşısında xidmətlərinin yüksək qiymətləndirildiyinin daha bir təzahürü idi. 2011-ci ildə isə görkəmli mətbuat xadiminin anadan olmasının 100 illiyinin qeyd olunmasına dair Prezidentin Sərəncamı olmuşdur.

Bir sözlə, 87 il ömür sürmüş Nəsir İmanquliyev milli jurnalistikamızın korifey simalarından biri kimi onu yaxından tanıyanların qəlbində silinməz izlər buraxmış, bütün həyatını milli mətbuatımızın inkişafına, azərbaycançılıq ideologiyasının təbliğinə, cəmiyyətin obyektiv informasiya tələbatının ödənilməsinə həsr edərək, böyük bir məktəbin əsasını qoymuşdur. Bakı Dövlət Universitetinin auditoriyalarından mətbuata nüfuzlu müəlliminin xeyir-duası ilə gəlmiş çoxsaylı yetirmələri, söz sənətinə gətirdiyi insanlar - sonralar Azərbaycan jurnalistikasının tanınmış simalarına çevrilən neçə-neçə ziyalı üçün Nəsir İmanquliyev, sözün həqiqi mənasında, parlaq, nurlu və unudulmaz şəxsiyyətdir. Yüksək elmli, enerjili bir ziyalı olan Nəsir İmanquliyev jurnalistikamızda əbədi yaşamaq qüdrətini qeyri-adi əməksevərliyi, fitri istedadı, dərin bilik və qabiliyyətləri bahasına yüksələ bilmişdir. Onun yaşadığı şərəfli və mənalı ömür yolu əsl insana xas gözəl xüsusiyyətləri şəxsiyyətində cəmləşdirən alicənab və xeyirxah bir Azərbaycan ziyalısının əsrarəngiz həyat hekayəsidir.

*Rəyçi: prof. E. Quliyev*

**Г.Касумов,**
**Н.Наджафов**

**Патриарх национальной журналистики**

**Резюме**

В статье рассказывается о личности чья деятельность посвещена развитию и формированию азербайджанской журналистики, Н.Имангулиева, научно-педагогическая деятельность которого, широко отмечается в нашей Республике, как известного педагога просветителя.

**H. Gasimov,**
**N. Najafov**

**The Patriarch of National Journalism**

**Summary**

In the article it is spoken about Nasir Guliyev's scientific-pedagogical activity, who dedicated his life to the development of Azerbaijan press and culture, reimbursement with objective information of society and preparation of qualified journalist cadres. It is also noted that as a great educationist he did his best in the development of national core virtues.





*Metodika, qabaqcıl təcrübə*

# Təlimin metodik məsələləri: həndəsənin hazırlıq kursu

**Mönsüm Alışov**
***Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun prorektoru, dosent***

***Açar sözlər:*** *həndəsə, həndəsənin hazırlıq kursu, məzmun xətti.*
***Ключевые слова:*** *геометрия, подготовительный курс геометрии, содержательная линия, геометрическая величина.*
***Key words:*** *line of preliminary course of the geometry, maintenance, geometrycal quantity.*

Respublikamızda hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Çünki bu inkişafın əsasında ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına geniş imkan və şərait yaradır. Ölkədə keçirilən təhsil islahatları təhsil siyasətinin səmərəliliyini artıran nəticələrə gətirib çıxarır.

Məktəb təhsilində aparılan müasir islahatlar və orta riyazi təhsilin məzmunu və tədrisi formalarının təkmilləşdirilməsi son on ildə daha da intensivləşdirilmişdir. Burada əsas məqsəd-məktəb fənlərinin məzmunu və strukturunun təkmilləşdirilməsi, müasir təlim metodları və prinsiplərinin müasir kompyuter texnologiyaları əsasında qurulması və şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsindən ibarətdir. Müasir təhsil konsepsiyasınca şəxsiyyətin inkişaf etdirilməsinə xüsusi diqqət verilir. Belə ki, təlimə verilən əsas tələblərdən –şagirdlərin qazandıqları biliklərin praktik əhəmiyyət kəsb etməsi, varisliyin təmin edilməsi, ilk növbədə məktəb kursunda şagirdlərin həndəsəyə aid bilik, bacarıq və vərdişlərinin yüksək səviyyədə təmin edilməsinə xidmət edir.

Riyaziyyatdan milli kurikuluma əsasən məzmun xətlərindən ikisi "Həndəsə" və "Ölçmələr" I-VI siniflərdə həndəsə materialının tədrisi və şagirdlərdə kəmiyyətləri ölçmə və hesablamaya aid bacarıq və vərdişlərin formalaşdırılmasına həsr olunmuşdur. "Həndəsə" məzmun xəttinin mənimsənilməsinə aid ümumi nəticələr aşağıdakı məzmunda verilmişdir: Şagirdlər fəza təsəvvürləri əsasında nəzərdən keçirilən həndəsi fiqurların əlamətlərini və ya xassələrini təhlil etməyi: həndəsi münasibətləri ayırd etməyi və əsaslandırmağı; sadə həndəsi çevrilmələrdən, sadə həndəsi qurmalarda çertyoj vasitələrdən istifadə etməyi bacarmalıdırlar [1, 6].

Göründüyü kimi, "Həndəsə" və "Ölçmələr" məzmun xətləri bir-birilə sıx bağlıdır. "Ölçmələr" məzmun xəttinin əlaqələrini aşağıdakı kimi təsvir etmək olar: